## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2017-ci il üzrə hesabatı

### Məşğulluq və işsizlik

2017-ci il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1517,8 min nəfər olmuş, onlardan 878,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 639,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. İqtisadiyyatın neft sektorunda 34,2 min nəfər, qeyri-neft sektorunda isə 1483,6 min nəfər muzdla çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,7 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6,9 faizi emal sənayesində, 6,6 faizi tikintidə, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,2 faizi mədənçıxarma sənayesində, 2,1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

Xidmət sahəsində işləyənlərin 21,8 faizi təhsil, 19,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi istirahət, əyləncə və incəsənət, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,6 faizi informasiya və rabitə, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışmışlar.

2018-ci yanvar ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 38 470 nəfər olmuş, onların 36,3 faizini qadınlar təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 290,92 manat olmuşdur.

**Məşğulluq xidməti orqanları tərəfindən işsiz statusu verilmiş şəxslərin sayı**

(1 yanvar 2018-ci il vəziyyətinə)

| | **İşsiz statusuna malik olanlar, nəfər** |
|---|---|
| **Ölkə üzrə-cəmi** | **38 470** |
| Bakı şəhəri-cəmi | 18 926 |
| Abşeron İqtisadi rayonu-cəmi | 2 032 |
| Gəncə-Qazax İqtisadi rayonu-cəmi | 2 640 |
| Şəki-Zaqatala İqtisadi rayonu-cəmi | 1 178 |
| Lənkəran İqtisadi rayonu-cəmi | 1 213 |
| Quba-Xaçmaz İqtisadi rayonu-cəmi | 1 386 |
| Aran İqtisadi rayonu-cəmi | 7 476 |
| Yuxarı Qarabağ İqtisadi rayonu-cəmi | 1 562 |
| Kəlbəcər-Laçın İqtisadi rayonu-cəmi | 1 366 |
| Dağlıq Şirvan İqtisadi rayonu-cəmi | 691 |

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

Azərbaycan Respublikasında bazar iqtisadiyyatının tələblərinə uyğun reallaşdırılan islahatlarla əhalinin rifahının yüksəldilməsi konsepsiyası uğurla icra olunur. Bu əsasda Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların tətbiqi, əmək pensiyaçılarının və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri 2017-ci ildə də davam etdirilmişdir.

İlkin məlumatlara əsasən 2017-ci ildə DSMF-nin gəlirləri 2016-cı ilə nisbətən 220,8 mln. manat və ya 6,95 faiz artaraq 3398,9 mln. manata yüksəlmişdir.

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirləri**




Hesabat dövründə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar ötən illə müqayisədə 8,6 faiz və ya 165,2 mln. manat artaraq 2086,2 mln. manat təşkil etmiş, proqnoza 98,2 faiz əməl olunmuşdur.

Ölkədəki iqtisadi inkişafın əyani təsdiqi kimi qeyri-büdcə sektoru üzrə sosial sığorta daxilolmalarındakı artım tendensiyası 2017-ci ildə də davam etmişdir. Qeyri-büdcə sektorundan daxilolmalar sosial sığorta haqlarının 64,1 faizini və ya 1337,4 mln. manatını təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 10,8 faiz və ya 130,0 mln. manat çox olmaqla, illik proqnoz 102,9 faiz icra edilmişdir.




2017-ci ildə DSMF-nin xərcləri 3464,0 mln. manat təşkil etmiş və bunun 3383,9 mln. manatı və yaxud 97,7 faizi əhaliyə ödənişlərə yönəldilmişdir. Əmək pensiyaları ilə bağlı xərclər 3289,6 mln. manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərin məbləği isə 94,3 mln. manat təşkil etmişdir. Fondun daxilolmalarının artım səviyyəsi pensiya və müavinətlərin qrafik üzrə maliyyələşdirilməsinə imkan vermişdir.




2017-ci ilin 1 aprel tarixindən real rejimdə məcburi dövlət sosial sığorta haqları üzrə fərdi uçot əsaslı vahid rüblük hesabat alt sisteminin tətbiqinə başlanılmışdır.

Fərdi uçot sistemində qeydiyyata alınan sığortaolunanların sayı 2018-ci ilin 1 yanvar tarixinə ötən ilin əvvəlinə nisbətən 193 188 nəfər artaraq 3 566 745 nəfər təşkil etmiş, sistemdə qeydiyyata alınan əcnəbi vətəndaşların sayı 10 022 nəfərə çatmışdır.

İlkin məlumatlara əsasən, 2017-ci ildə ölkə əhalisinin 4,8 faizinə və ya 483,0 min nəfərə aylıq və birdəfəlik sosial müavinət təyin olunub ödənilmişdir. Ölkə üzrə 378,8 min nəfər və ya müavinət alanların 76,3 faizi aylıq, 104,2 min nəfər və ya müavinət alanların 23,7 faizi isə birdəfəlik sosial müavinət alanlardır. Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarına əsasən 59,8 min nəfərə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri təyin olunaraq ödənilmişdir.

2017-ci ildə sosial müavinət alanların sayı 2016-cı il ilə müqayisədə 10,0 min nəfər, təqaüd alanların sayı isə 2,2 min nəfər artmışdır. 2016-cı ildə bu məqsədlər üçün 339,1 mln. manat vəsait xərcləndiyi halda, 2017-ci ildə 370,6 mln. manat sərf edilmişdir. Ödənilən vəsaitin məbləği ötən illə müqayisədə 31,5 mln. manat və ya 9,3% artmışdır.

2016-cı ilin fevral ayından etibarən aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının təyin olunması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli qərarı ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”na əsasən Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) tərəfindən avtomatlaşdırılmış qaydada həyata keçirilmişdir ki, nəticədə, ünvanlı dövlət sosial yardımın təyin olunmasında əvvəllər yol verilən neqativ hallar aradan qaldırılmışdır.

Şəffaflığın təmin edilməsi nəticəsində respublika üzrə 2017-ci ildə orta hesabla (Naxçıvan MR istisna olmaqla) 116 min ailə (464 min ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin olunmuşdur ki, bu da 2016-cı illə müqayisədə 16 min ailə və ya 12,1 % azdır.

2017-ci ilin əvvəlində 159,5 min ailə ünvanlı dövlət sosial yardımı ilə əhatə olunmuşdursa, ilin sonuna belə ailələrin sayı 2 dəfə azalaraq 80 min (320 min nəfər ailə üzvü) təşkil etmiş, müraciətlərin sayı isə ilin əvvəlinə nisbətən 4 dəfə azalmışdır.

2018-ci ilin 1 yanvar tarixinə ünvanlı dövlət sosial yardımının bir ailəyə düşən orta aylıq məbləği 150 manat olmuş və il ərzində bu məqsədlərə 215 milyon manat vəsait xərclənmişdir.

“Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamında 2014-cü il yanvar ayının 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınanların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-2018-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-cı illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası istiqamətində işlər aparılır. 2017-ci ildə 315 nəfər yaşayış sahəsi ilə (148 mənzil, 167 fərdi ev) təmin olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 iyun tarixli 155s nömrəli Sərəncamına əsasən Gəncə şəhər Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzində, İmişli rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa edilmiş 6 mərtəbəli 54 mənzilli və Şamaxı rayonunda 4 mərtəbəli 36 mənzilli yaşayış binalarında son tamamlama işləri aparılır. Həmçinin, Bakı şəhəri, Nizami rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 12 mərtəbəli 96 mənzilli yaşayış binasının tikintisi davam edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 saylı Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"na əsasən imtiyazlı şəxslər sosial xidmət müəssisəsinə yerləşdirilir. Ümumilikdə 2017-ci il ərzində Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan müəssisələrdə 1079 nəfər tam dövlət təminatında olmuşdur.

DSMF-nin nəzdində dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün “Məzun evi” Sosial Müəssisəsində 209 nəfər bu kateqoriyadan olan şəxs yaşayır. Hazırda1 saylı Sağlamlıq imkanları məhdud gənclərin peşə-reabilitasiya mərkəzində 113 nəfər kurs keçir, “Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi” sosial xidmət müəssisəsində 7

nəfərə, “Yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacaq” sosial xidmət müəssisəsində isə 22 nəfərə xidmət göstərilir.

Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi tərəfindən yönəldilmiş 68 nəfər insan alveri qurbanına və müxtəlif qeyri-hökumət təşkilatları tərəfindən yönəldilmiş və fərdi qaydada müraciət etmiş 28 nəfər insan alverinin potensial qurbanına yardım (sosial, hüquqi, tibbi, psixoloji və digər) göstərilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 30 dekabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş “Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası”na əsasən sağlamlıq imkanları məhdud uşaqlara sosial xidmətlərin göstərilməsi üçün Nazirlik tərəfindən prioritet istiqamətlər müəyyən edilmiş və həmin xidmətlərin ixtisaslaşdırılmış QHT-lər tərəfindən icra edilməsi məqsədi ilə sosial sifarişlər elan olunaraq layihələr həyata keçirilmişdir. Hazırda bu layihələrlə 4100 nəfər ehtiyacı olan uşaq əhatə olunur.

20 Yanvar faciəsinin iyirmi beşinci ildönümü ilə əlaqədar olaraq 114 nəfər 20 Yanvar şəhid ailəsinin və 309 nəfər 20 Yanvar əlilinin, Çernobıl AES-də baş vermiş qəzanın 31-ci ildönümü ilə əlaqədar həmin qəzanın nəticələrinin aradan qaldırılmasında əlil olmuş 500 nəfər şəxsin hər birinə 50 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir.

Novruz bayramı münasibəti ilə Sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzində, Müharibə və əmək əlilləri üçün pansionatda, 1 saylı psixonevroloji sosial xidmət müəssisəsində, 1 və 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində bayram süfrələrinin açılması və şənliklərin təşkil edilməsi üçün müvafiq tədbirlər görülmüşdür.

İdman tədbirlərinin keçirilməsi və əlillərin beynəlxalq yarışlarda iştirakına şərait yaradılması məqsədi ilə Paralimpiya və Xüsusi Olimpiya Komitələrinə maliyyə vəsaiti ayrılmışdır.

Əlillərin asudə vaxtının təşkili məqsədi ilə 1165 nəfər əlilin Lənkəran, Xaçmaz və Quba rayonlarında yerləşən istirahət sağlamlıq mərkəzlərinə göndərilməsi təmin edilmişdir.

3 dekabr-Beynəlxalq əlillər günü münasibətilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin bütün şəhər və rayon şöbələrində tədbirlər keçirilərək əlil ictimai təşkilatların və yerli özünüidarəetmə orqanlarının iştirakı ilə müəyyən edilmiş sosial müdafiəyə daha çox ehtiyacı olan 7500 əlilin hər birinə 30 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir.

Yeni il bayramı münasibəti ilə təşkil olunan şənliklərdə iştirak etmələri üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin Bakı şəhəri üzrə şöbələrindən, Fondun Abşeron rayon və Sumqayıt şəhər şöbələrindən müavinət alan sosial müdafiəyə daha çox ehtiyacı olan sağlamlıq imkanları məhdud uşaqlara 1000 bilet alınaraq paylanmışdır. 3 dekabr–Beynəlxalq əlillər günü münasibətilə 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzində, 1 saylı və 2 saylı Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində xüsusi qayğıya daha çox ehtiyacı olan şəxslərin iştirakı ilə musiqili-əyləncəli tədbirlər təşkil edilmişdir.

Əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılması, onların istedad və qabiliyyətlərinin aşkara çıxarılması və cəmiyyətə inteqrasiya olunması məqsədi ilə əlilliyi olan şəxslərin stolüstü idman oyunları üzrə V Ümumrespublika yarışları keçirilmişdir. Yarışlarda respublikanın ayrı-ayrı bölgələrində yaşayan 790 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq idmanın dama, şahmat, nərd, qol güləşi və stolüstü tennis növlərində öz istedad və qabiliyyətlərini nümayiş etdirmiş və münsiflər heyətinin qərarına əsasən 108 nəfər əlil şəxs və sağlamlıq imkanları məhdud uşaq final turunda iştirak etmək hüququ qazanmışdır. Nazirliyin müvafiq əmri ilə final turunun qaliblərinə hər biri 26 yer olmaqla I yer üzrə300 manat, II yer üzrə 250 manat, III yer üzrə 200 manat məbləğində mükafatlar verilmişdir.

DSMF-nin rayon (şəhər) şöbələri tərəfindən cari ildə 6551 ədəd sanator-kurort putyovkası müxtəlif kateqoriyalardan olan imtiyazlı şəxslərə paylanılmışdır. Nazirliyin “Əlillərin tibbi

reabilitasiya və sosial-məişət problemlərinin həllinə köməklik göstərən Komissiyası”nın qərarı əsasında sosial müdafiəyə daha çox ehtiyacı olan 1427 nəfər əlilə sosial-məişət problemlərinin həll edilməsi və 25 nəfər əlilə respublika daxilində müalicə olunması məqsədilə birdəfəlik maddi yardım ödənilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Vətəndaşların respublikadan kənar müalicəyə göndərilməsi məsələləri üzrə Komissiyası”nın müvafiq rəyi əsasında 44 nəfər əlilin respublikadan kənar müalicəyə göndərilməsinə müvafiq köməklik göstərilməsi barədə Nazirlik tərəfindən qərarlar qəbul olunmuşdur.

DSMF-nin rayon və şəhər şöbələri tərəfindən 2017-ci ildə 11025 nəfərə evdə sosial-məişət xidməti göstərilmişdir.

## Əmək münasibətləri və sosial müdafiə

2017-ci ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 6,4 faiz artaraq 525,4 manat təşkil etmişdir. 2017-ci ilin yanvar-oktyabr aylarında neft sektorunda orta əmək haqqı 3084,4 manat, qeyri-neft sektorunda 465,2 manat, dövlət müəssisələrində çalışan işçilərin orta əmək haqqı 392,0 manat, özəl müəssisələrdə isə 711,5 manat  təşkil etmişdir. Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də tikinti sahələrində orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

**2003-2017-ci illərdə minimum əmək haqqı və bir nəfərə düşən orta aylıq əmək haqqı**




2017-ci ildə minimum aylıq əməkhaqqının məbləği 116 manat olmuş və “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr Sərəncamı ilə 1  yanvar 2018-ci il tarixindən minimum aylıq əməkhaqqının 12,1 faiz artırılaraq 130 manata çatdırılmışdır.

Ölkə üzrə aparılan uğurlu siyasətin nəticəsi olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 2017-ci il ərzində işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluğunun təmin edilməsi istiqamətində bir sıra məşğulluq tədbirləri həyata keçirilmişdir.

Məşğulluq Xidməti orqanlarına hesabat dövründə cəmi 118,5 min nəfər müraciət etmiş, onlardan 47,9 min nəfəri münasib işlə təmin edilmiş, 1156 nəfəri haqqı ödənilən ictimai işlərə, 3561 nəfəri isə peşə hazırlığı kurslarına cəlb olunmuş, 12996 nəfərə işsiz statusu verilmiş, 14824 nəfərə işsizlik müavinəti təyin edilmişdir. 2016-cı il illə müqayisədə peşə kurslarına, ictimai işlərə cəlb olunanların, işsiz statusu alanların və işsizlik müavinəti təyin edilənlərin sayında artım müşahidə edilmiş, müraciət edənlərin və ilin sonuna qeydiyyatda olan işaxtaranların sayı isə əhəmiyyətli dərəcədə azalmışdır.

| Göstəricinin adı | 2016-cı il | 2017-cı il | Nisbi müqayisə,% | Mütləq müqayisə, nəfər |
|---|---|---|---|---|
| Müraciət edənlərin sayı | 204 283 | 118 499 | 58,0 | -85 784 |
| Işsiz statusu alanların sayı | 11 010 | 12 997 | 118,0 | 1 987 |
| Işsizlik müavinəti alanların sayı | 11 552 | 14 824 | 128,3 | 3 272 |
| Işə düzələnlərin sayı | 56 631 | 47 901 | 84,6 | -8 730 |
| Müxtəlif səbəbdən qeydiyyatdan çıxanların sayı | 39 747 | 100 890 | 253,8 | 61 143 |
| *o cümlədən* | | | | |
| işsiz statusu olanlar | 6 915 | 7 499 | 108,4 | 584 |
| Dövrün sonuna qeydiyyatda olan işaxtaranların sayı | 227 024 | 196 732 | 86,7 | -30 292 |
| *o cümlədən* | | | | |
| işsiz statusu olanlar | 32 972 | 38 470 | 116,7 | 5 498 |
| İşsizlik müavinəti alanlar (ödəmələrin sayı) | 68 177 | 65 777 | 96,5 | -2 400 |
| *o cümlədən* | | | | |
| minimum məbləğdə alanların sayı (ödəmələrin sayı) | 18 846 | 19 326 | 102,5 | 480 |
| Peşə kurslarına cəlb olunanların sayı | 3 352 | 3 561 | 106,2 | 209 |
| *o cümlədən* | | | | |
| işsiz statusu olanlar | 6 | 18 | 300,0 | 12 |
| Peşəni başa çatdıranların sayı | 3 570 | 3 287 | 92,1 | -283 |
| *onlardan:* | | | | |
| işə düzələnlərin sayı | 1 223 | 1 031 | 84,3 | -192 |
| Ictimai işə cəlb olunanların sayı | 1 147 | 1 156 | 100,8 | 9 |
| *o cümlədən* | | | | |
| işsiz statusu olanlar | 0 | 5 | | 5 |
| İşçi güvvəsinə olan tələbat | 11 086 | 14 049 | 126,7 | 2 963 |
| *onlardan* | | | | |
| peşəsi və ixtisası olanlar | 2 435 | 3 866 | 158,8 | 1 431 |

Ölkə Prezidentinin sosial məsuliyyətin bölüşdürülməsi ilə bağlı işəgötürənlərə çağırışı ölkədə sosial məsuliyyət prinsipinin geniş vüsət almasına, məşğulluq sahəsində mövcud olan sosial tərəfdaşlıq müstəvisində dövlət-işəgötürən münasibətlərinin keyfiyyətcə yeni və işgüzar bir mərhələyə çıxmasına zəmin yaratmışdır. 2017-ci il ərzində bu çərçivədə 15,1 min işçinin əmək müqaviləsinin müddəti uzadılmış, 7,1 min işaxtaranla yeni əmək müqaviləsi bağlanılmış, ictimai işlərin təşkili proqramı üzrə 19,2 min nəfər respublikanın regionlarında yerli icra hakimiyyətləri tərəfindən həyata keçirilən abadlıq və təmir-tikinti işlərinə cəlb edilmişdir.

Əmək Müqaviləsi Bildirişinin Elektron İnformasiya Sistemindən (ƏMBEİS) alınan məlumata əsasən 2017-ci il ərzində qeydiyyata alınmış əmək müqavilələrinin sayı 44,7 min artaraq 1 yanvar 2018-ci il tarixə 1 milyon 310 min (Naxçıvan MR-nda muzdlu işçilər və

qanunvericiliklə əmək müqaviləsi bildirişi ƏMBEİS-ə daxil edilməyən işçilər istisna olmaqla) təşkil etmişdir.

Hesabat dövründə mövcud əmək bazarının tələblərinə uyğun olaraq təşkil edilmiş peşə hazırlığı kurslarına 2509 nəfər işaxtaran vətəndaş cəlb olunmuşdur ki, onlardan 1457 nəfər Bakı, 721 nəfər Göyçay və 331 nəfər Naxçıvan Regional Peşə Tədris Mərkəzlərində peşə hazırlığı keçmişlər. Peşə hazırlığı kurslarının təşkilində 87 ənənəvi peşə proqramları ilə yanaşı, müasir modul tədris proqramları da tətbiq edilmişdir. Azərbaycan Hökuməti və Dünya Bankının birgə həyata keçirdiyi "Sosial Müdafiənin İnkişafı" Layihəsi çərçivəsində 43 peşə üzrə modul tədris proqramları hazırlanaraq Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur ki, ümumilikdə 58 peşə üzrə modul tədris proqramları üzrə peşə hazırlığı həyata keçirilir. 2017-ci ildə 48 nəfər gözdən əlil Brayl sistemi üzrə "Kompüter istifadəçisi" və "İngilis dili" peşələri üzrə hazırlıq kurslarına cəlb olunmuşdur.

2017-ci ildə 105,3 min nəfər vətəndaşa, xüsusən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə peşəyönümü məsləhətləri və əmək bazarında işəgötürənlərin tələbləri haqqında ətraflı məlumat verilmiş, məşğulluqla əlaqədar gəncləri maraqlandıran mövzu və problemlər ətrafında müzakirələr aparılmışdır.

Həyata keçirilən yeniliklərdən biri də, gənclərin şüurlu yaradıcı əməyə hazırlanmasında, onların ixtisas seçiminə düzgün istiqamətləndirilməsində valideynlərin rolu nəzərə alınaraq övladlarının gələcəkdə düzgün peşə seçimi etməsi barədə valideynlərə məsləhətlərin verilməsi olmuşdur. Bu məqsədlə respublikanın şəhər və rayonların aparıcı ümumtəhsil orta məktəblərində, Bakı şəhəri üzrə ümumtəhsil orta məktəblərində pedaqoji kadrların, buraxılış sinif şagirdlərinin və onların valideynlərinin iştirakı ilə peşəyönümü üzrə tədbirlər keçirilmiş, keçirilən tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

Aktiv məşğulluq tədbirləri ilə işəgötürənlərin məlumatlandırılması üçün respublikanın 65 rayon və şəhərində dəyirmi masalar təşkil edilmiş, bu tədbirlərə şəhər, rayon İcra Hakimiyyətinin, məşğulluğa kömək göstərən yerli Əlaqələndirmə Komitələrinin, həmkarlar ittifaqlarının, Gənclər və İdman idarələrinin nümayəndələri, eləcə də rayon ərazisində fəaliyyət göstərən 2000-ə yaxın müəssisə, idarə, təşkilat və şirkət nümayəndələri cəlb edilmişlər.

2017-ci ildə respublikanın 57 şəhər və rayonlarında əmək yarmarkaları təşkil olunmuş, bu yarmarkalarda 1817 müəssisə tərəfindən boş iş yerləri işsiz və işaxtaran vətəndaşlara təqdim olunmuşdur. Respublikanın müxtəlif regionlarında keçirilmiş yarmarkalarda 17182 boş (vakant) iş yerlərinin hesabına 3987 nəfər işsiz vətəndaşa münasib işlərə göndəriş verilmiş, onlardan 3491 nəfəri (87,5 %-i) münasib işlə təmin edilmiş, 99 nəfər peşə hazırlığı kurslarına, 114 nəfər isə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

Bakı, Gəncə, Sumqayıt şəhərlərində və Lənkəran rayonunda məzun və tələbələrin işlə təmin olunmasına, eləcə də onların əmək bazarına inteqrasiyasına köməklik göstərilməsi məqsədi ilə "Karyerada ilk addım" devizi altında respublikanın 10 ali təhsil ocağında tədbirlər keçirilmişdir ki, bu tədbirlərə 583 müəssisə tərəfindən 2979 boş (vakant) iş yerləri təqdim edilmişdir. Tədbirlər nəticəsində 205 nəfərə münasib işlərə göndəriş verilmiş, onlardan da 57 nəfəri (27,8 %-i) işlə təmin edilmiş, 51 nəfər peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmiş, 4255 məzun və tələbənin şəxsi məlumatları müəssisələr tərəfindən qəbul edilmişdir.

Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarında 19272 müəssisə haqqında məlumat mövcuddur ki, bu müəssisələrdən 1600-ü və yaxud 11,5%-i cari ildə boş iş yerləri haqqında Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarına məlumat təqdim etmişdir.

İşaxtaran və işsiz vətəndaşların işlə təmin olunması məqsədilə işəgötürənlərdən toplanan vakant iş yerləri haqqında məlumatlar öz müsbət rolunu oynamış, Dövlət Məşğulluq Xidmətinin yerli orqanları vasitəsi ilə orta hesabla hər 100 vahid vakansiyaya 77 nəfər işlə təmin edilmişdir.

Pərakəndə işçi qüvvəsinin daha səmərəli və etibarlı fəaliyyətini təmin etmək məqsədilə hesabat dövründə Dövlət Məşğulluq Xidmətinin struktur bölməsinə daxil olan "Əmək Birjaları" tərəfindən 3122 nəfər işsiz vətəndaş, o cümlədən 1697 nəfər qadın, 1353 nəfər gənc, 116 nəfər qaçqın və məcburi köçkün vətəndaş, 12 nəfər əlil müvəqqəti xarakterli işlərlə təmin olunmuşdur.

Ölkəmizdə sosial partnyorluq sistemini inkişaf etdirmək, sosial-iqtisadi siyasətin işlənilməsi və həyata keçirilməsi məsələlərinə sosial tərəfdaşları cəlb etmək, bu məsələlərin həlli məqsədilə sosial tərəfdaşlarla məsləhətləşmələr aparmaq, sosial-əmək münasibətləri, əhalinin məşğulluğu, miqrasiya və sosial təminat sahəsində həyata keçirilən siyasəti sosial tərəfdaşların iştirakı ilə formalaşdırmaq demokratik dövlət quruçuluğunun əsas və vacib istiqamətlərindən biridir.

2016-cı ilin sentyabr ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın təsis edilməsi ölkəmizdə milli üçtərəfli sosial dialoq üzrə institusional strukturun inkişaf etdirilməsində keyfiyyətcə yeni mərhələyə start verilmişdir.

2017-ci ildə Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiya uğurlu fəaliyyətini davam etdirmişdir. Sosial tərəfdaşların rəy və təklifləri nəzərə alınmaqla baxılmış qanun və qərar layihələri müvafiq qanunvericilik və yuxarı icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmişdir. Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın fəaliyyəti Beynəlxalq Əmək Təşkilatının Azərbaycan Respublikasında səfərdə olan nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir.

Ölkə Prezidentinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əmək bazarının səmərəliliyi üzrə ölkəmizin mövqeyinin beynəlxalq reytinqdə yaxşılaşması iqtisadiyyatın dayanıqlı inkişafını təmin etməklə yanaşı, əmək bazarında da davamlı inkişafa şərait yaratmışdır. Ötən dövrdə dövlət başçısının tapşırıqları əsasında həyata keçirilən kompleks tədbirlər əmək bazarının tənzimlənməsində, əmək resurslarının məşğulluq imkanlarının artırılmasında, işçi qüvvəsinin rəqabət qabiliyyətinin yüksəlməsində və əmək resurslarından ümumi iqtisadi inkişafa əsaslanan məqsədəuyğun istifadənin təmin olunmasında mühüm rol oynamışdır. Əmək və məşğulluq sahəsində həyata keçirilən tədbirlər mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirilmişdir.

Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda iki pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşan Azərbaycan Respublikası əmək bazarının səmərəliliyi üzrə hesabatda 9 pillə irəliləyərək 17-ci yeri tutmuşdur. Bununla da Azərbaycan Respublikası əmək bazarının səmərəliliyi üzrə hesabatda digər MDB dövlətlərindən, eyni zamanda İsrail, Fransa, İsveç, Belçika, Avstriya, Qətər, Yaponiya, İspaniya, İtaliya, Finlandiya, Latviya, Çin, Malayziya və digər ölkələrdən öndə qərarlaşmışdır.

Sosial-iqtisadi həyatın mühüm sahəsi olan əmək bazarının inkişafı istiqamətində ölkəmizdə aparılan işlər BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu və Beynəlxalq Əmək Təşkilatının (BƏT) prinsiplərini özündə əks etdirir. Son illərdə tətbiq olunan Əmək Müqaviləsi Bildirişinin Elektron İnformasiya Sistemi əmək bazarı iştirakçılarının hüquq və mənafelərinin təminatında, əmək bazarının tənzimlənməsi prosesində innovativ yanaşmalardan irəli gələn səmərəli vasitə olmaqla, dünyanın qabaqcıl təcrübələri sırasındadır. Ölkəmizdə sosial-iqtisadi məsələlərin həllində sosial dialoqun gücləndirilməsi, bu istiqamətdə mühüm addım kimi Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın yaradılması, aktiv əmək bazarı proqramlarının genişləndirilməsi və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm önəm kəsb edən “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, peşə standartlarının hazırlanaraq istifadəyə verilməsi nəticə etibarilə əmək bazarının inkişafına stimul yaradan tədbirlərdəndir.

2017-ci ilin 5-16 iyun tarixlərində Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatının (BƏT) üzv-dövlətlərinin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə baş tutmuş Beynəlxalq Əmək Konfransının 106-cı sessiyası çərçivəsində 12 iyun tarixində keçirilmiş seçkilərdə Azərbaycan Respublikası 2017-2020-ci illər üçün BƏT-in Rəhbər Orqanına üzv seçilmişdir. 2016-cı ilin sentyabr ayında isə Azərbaycan Hökuməti ilə BƏT arasında 2016-2020-ci illər üçün əməkdaşlıq prioritetlərini müəyyən edən ikinci Layiqli Əmək üzrə Ölkə Proqramı imzalanmış və hazırda uğurla icra olunur.

Bu tədbirlər, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulan müvafiq strateji hədəflərin icrası, insan kapitalının inkişaf etdirilməsi, işçi qüvvəsinin bilik və bacarıq səviyyəsinin artırılması və s. sahələrdə aparılan məqsədəuyğun işlər qarşıdakı dövrdə də ölkəmizin əmək bazarında inkişaf meyllərinin davam etdirilməsinə, onun səmərəliliyinin artırılmasına imkan yaradır.

Əmək bazarının tələblərinə cavab verən aktiv və passiv məşğulluq tədbirlərinin genişləndirilməsi, gənclərin məşğulluğunun artırılması üzrə xüsusi layihələrin hazırlanması, onlara əmək bazarının tələblərinə uyğun çevik peşə təhsili imkanlarının yaradılması ölkəmizdə ayrıca işsizlik sığortası sisteminin qurulmasının zəruriliyini ortaya qoymuşdur.

2017-ci ildə ölkəmizdə işsizlikdən sığorta sahəsində qabaqcıl dünya təcrübəsindəki mütərəqqi cəhətləri özündə əks etdirən yeni “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. Bu Qanun Azərbaycanda 2018-ci ilin əvvəlindən işsizlikdən sığorta sisteminin fəaliyyətə başlamasına, iş yerini itirmiş şəxslərin itirilmiş gəlirlərinin kompensasiyası ilə yanaşı, aktiv məşğulluq tədbirlərinin əhəmiyyətli şəkildə genişlənməsinə imkan yaradan İşsizlikdən Sığorta Fondunun formalaşmasına səbəb olmuşdur. Yeni maliyyə mənbəyinin yaradılması dövlət büdcəsinin vəsaitlərinə qənaət edilməsi ilə yanaşı, 2018-ci ildə məşğulluq sahəsində maliyyələşdirmə üçün ayrılan xərclərin cari ildəkinə nisbətən 3,2 dəfə artırılmasına imkan verir.

“Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli Sərəncamı ilə əhalinin özünüməşğulluğuna kömək göstərilməsi məqsədilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 6,0 (altı) milyon manat vəsait ayrılmışdır. Proqrama respublikanın 84 şəhər, rayonu üzrə (Bakı şəhərinin 12 inzibati rayonu daxil olmaqla) 1281 ev təsərrüfatının (o cümlədən, Naxçıvan Muxtar Respublikası üzrə 82 ev təsərrüfatı) cəlb edilmişdir.

01.01.2018-ci il tarixə 1172 ailə üçün aktivlərin alınması və təqdim olunması həyata keçirilmiş və onların müxtəlif iqtisadi fəaliyyət növləri, əsasən kənd təsərrüfatı sahələri üzrə biznes-planlarına uyğun şəkildə fərdi təsərrüfatlarını yaratmalarına nail olunmuşdur. Beləliklə, proqrama cəlb olunan ailələrdə orta hesabla 4-5 nəfərin olduğunu nəzərə alsaq, təkcə bu il ərzində özünüməşğulluq proqramı 5 min nəfərə yaxın insanın rifahında müsbət dəyişikliklərə şərait yaratmışdır.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) mənzil-qərargahı Bakı şəhərində yerləşəcək beynəlxalq statuslu Əmək Mərkəzinin təsis olunması ilə bağlı tədbirlər 2017-ci ildə də davam etdirilmişdir. Tədbirlərin əlaqələndirilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində İşçi Qrupu yaradılmış və İƏT-in digər qurumlarının fəaliyyəti və iş təcrübəsi ilə tanışlıq məqsədilə 2017-ci ilin 28 mart – 01 aprel tarixlərində Türkiyənin Ankara şəhərində yerləşən İslam Ölkələrin Statistika, İqtisadi və Sosial Araşdırma və Təlim Mərkəzinə (SESRİC) və İƏT-in İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinə (COMCEC) səfər təşkil olunmuşdur.

2017-ci ilin 10 aprel tarixində İndoneziya Respublikasının Cakarta şəhərində İƏT-ə üzv dövlətlərin Əmək Nazirləri Konfransının Rəhbər Komitəsinin iclasında Azərbaycan nümayəndə heyəti tərəfindən İƏT Əmək Mərkəzi barədə təqdimat edilmişdir. 23 noyabr 2017-ci il tarixdə Türkiyə Respublikasının İstanbul şəhərinə səfər etmiş Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri ölkəmizi təmsil edərək İslam Əməkdaşlıq Təşkilatının İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin 33-cü sessiyasının bağlanış iclası zamanı İƏT Əmək Mərkəzinin Nizamnaməsini imzalamışdır.

İqtisadiyyatın müxtəlif sahələri üzrə ilkin layihələri hazırlanmış 61 peşə standartı işəgötürənlərin nümayəndələri ilə müzakirə edilərək razılaşdırılmışdır. Peşə standartlarının hazırlanması, təsdiqi və tətbiqini təmin etmək məqsədilə qabaqcıl ölkələrin təcrübəsi öyrənilmiş, Avropa Təlim Fondunun ekspertləri ilə müvafiq müzakirələr aparılaraq bu prosesə beynəlxalq səviyyəli mütəxəssislərin cəlb edilməsi qərara alınmışdır. Qeyd olunan məsələ ilə bağlı layihənin

həyata keçirilməsi məqsədilə Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi ilə məsləhətləşmələr aparılmış və müvafiq texniki dəstəyin göstərilməsinə dair razılıq əldə olunmuşdur. Layihənin icrasına 2018-ci ilin yanvar ayında başlanılması nəzərdə tutulur.

Avropa İttifaqının Avropa Qonşuluq Aləti Proqramı çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə birgə həyata keçirilən “Azərbaycanda Peşə Təhsili və Təliminin (PTT) inkişafına Avropa İttifaqının dəstəyi” layihəsinin “Kvalifikasiya və peşə standartlarına əsaslanan kurikulumların işlənilib hazırlanması və onların prioritet sahələrə tətbiq edilməsi” komponenti çərçivəsində sənaye və xidmət sahələri əhatə olunmaqla 9 ixtisas üzrə peşə standartları yenilənmişdir.

İşəgötürənlərin peşə standartlarından istifadəsinin asanlaşdırılması, ictimaiyyətin bu sahədə görülən işlər haqqında məlumatlandırılması məqsədilə fəaliyyət göstərən www.dios.az internet resursunda mövcud olan məlumatların Nazirliyin rəsmi internet səhifəsinə köçürülməsi təmin edilmişdir.

Mövcud demoqrafik meyllərə və inkişaf perspektivlərinə, ölkənin iqtisadi prioritetlərinə əsaslanaraq səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş institusional islahatları həyata keçirmək və uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə BƏT-in dəstəyi ilə “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2018-2030-cu illər)” layihəsi hazırlanmışdır. Hazırda “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2018-2030-cu illər)” layihəsinin təsdiqi üçün müvafiq tədbirlər həyata keçirilir.

“2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı”nın icrası çərçivəsində BƏT-in dəstəyi ilə qarşılıqlı razılıq əsasında Bakı şəhərinin 12 rayonu üzrə “Gənclərin layiqli məşğulluq imkanlarının genişləndirilməsinə yönəlmiş pilot subsidiya Proqramı”nın həyata keçirilməsi nəzərdə tutulur. Həyata keçiriləcək Proqramın məqsədi işaxtaran gənc vətəndaşların işlə təmin olunması üçün əmək haqqı və onunla bağlı məcburi dövlət sosial sığorta haqlarının 12 ay ərzində subsidiyalaşdırılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının icrası olaraq “Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramının (2017-2030-cu illər)” layihəsi hazırlanmışdır.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən daxil olmuş məlumatlar əsasında əcnəbilərin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətlərini həyata keçirmələrinə iş icazələrinin verilməsi ilə bağlı müraciətlərə Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 67.5-ci maddəsinə uyğun baxılmış, onlara dair müvafiq rəy verilmişdir.

2017-ci ilin 15 dekabr tarixinə Dövlət Miqrasiya Xidməti tərəfindən rəy verilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 8689 müraciət daxil olmuşdur ki, onlardan 4619-u yeni, 4070-i isə ötən illər ərzində verilmiş iş icazələrin müddətlərinin uzadılması ilə bağlı olmuşdur. Daxil olmuş müraciətlərə baxılmış və ümumilikdə 4600 nəfər olmaqla 2435 nəfərə iş icazəsi verilməsi, 2165 nəfərin isə iş icazələrinin müddətlərinin uzadılması məqsədəuyğun hesab edilmişdir. 4089 əcnəbiyə iş icazəsinin verilməsi məqsədəuyğun hesab edilməmişdir.

İş icazəsinə rəy verilməsi üçün daxil olmuş müraciətlərdən Türkiyə Respublikası (3491), Böyük Britaniya (1532) və Hindistan (600) vətəndaşları üstünlük təşkil etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli qərarı ilə təsdiq edilmiş “Əmək miqrasiyası kvotasının müəyyən edilməsi qaydası”na uyğun olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat və Təhsil nazirlikləri, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən təqdim olunan məlumatlar əsasında icmal hazırlanaraq Komissiya üzvlərinə təqdim edilmişdir. Qeyd olunan Qaydanın 2.1-ci bəndinə uyğun olaraq müvafiq Komissiyanın iclası 25 sentyabr 2017-ci il tarixdə təşkil olunmuş və “2018-ci il üçün əmək miqrasiyası kvotasının təsdiq edilməsi barədə” Sərəncam layihəsi hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuşdur.

2017-ci ildə əmək qanunvericiliyinin tələblərinin pozulmasına dair vətəndaşlardan daxil olmuş 6402 şikayət məzmunlu ərizə və müraciət, müəssisə, idarə və təşkilatlar tərəfindən

göndərilmiş 1622 ədəd müxtəlif xarakterli sorğu araşdırılaraq cavablandırılmışdır. Vətəndaşların müraciətlərinin araşdırılması zamanı 228 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Həmin hüquq pozuntularının böyük əksəriyyətinin aradan qaldırılması təmin edilmiş, aradan qaldırılması vaxt tələb edən pozuntuların ləğvi üçün işəgötürənlərə göstərişlər verilmişdir.

Törədilmiş inzibati xətaya görə vəzifəli və hüquqi şəxs barədə inzibati qərar qəbul edilərək 431400 manat məbləğində inzibati cərimə tətbiq olunmuşdur ki, onun da 94418 manatının dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 12 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, işçilər barəsində yol verilmiş çoxlu sayda qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

İstehsalatla əlaqəli sayılmış 151 bədbəxt hadisənin təhqiqatı aparılmışdır ki, onlardan da 11 hadisə qrup halında baş vermişdir. Bu hadisələr nəticəsində 61 nəfər həyatını itirmiş, 121 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

İqtisadi fəaliyyət sahələri üzrə istehsalatla bağlı bədbəxt hadisələrin daha çox tikinti (24%), emal sənayesində (17,5%), nəqliyyat (12,5%), mədənçıxarma (14%), energetika (5%) və digər sahələrdə (27%) baş verməsi müəyyən edilmişdir.

Tikinti sektorunda 36 bədbəxt hadisə baş vermiş (onlardan qrup halında 1(bir) hadisə qeydə alınmışdır) və bu hadisələr zamanı ölənlərin sayı 17 nəfər, xəsarət alanların sayı isə 24 nəfər olmuşdur.

2017-ci il ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin təsdiq edilmiş iş planına uyğun olaraq Uşaq əməyinin qarşısının alınması üzrə maarifləndirmə tədbirlərinin gücləndirilməsi istiqamətində 2017-ci il ərzində 7 regionda (4 şəhər və 8 rayonu əhatə etməklə) regional seminarlar keçirilmişdir.

Əmək şəraitindən asılı olaraq işçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların iş yerlərinin attestasiyası əsasında verilməsini təmin etmək məqsədilə “İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların Siyahısı” və “İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi Qaydaları” hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli 550 nömrəli qərarı təsdiq edilmişdir.

Əməyin ödəniş sistemlərinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq tənzimlənməsi məqsədilə cari ildə “Mülki aviasiya sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”, “Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”, “Elm və elmi xidmət sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası” və “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası” Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiya qərarları ilə təsdiq edilərək Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində qeydiyyata alınmışdır.

İşçilərin iş və istirahət rejimlərinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2017-ci il 20 dekabr tarixli 18 nömrəli Kollegiya qərarı ilə “2018-ci il üçün iş vaxtının norması və 2018-ci ilin istehsalat təqvimi” təsdiq edilmiş və Nazirliyin www.mlspp.gov.az saytında yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli Sərəncamı ilə ölkədə işçilərin sosial müdafiəsinin daha da gücləndirilməsi, işəgötürən–işçi münasibətlərinin rəsmiləşdirilməsi, əməyin ödənişinin təşkilinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, habelə əmək münasibətləri iştirakçılarının digər əmək hüquqlarının və təminatlarının effektiv müdafiəsinin təmin edilməsi və bu sahədə dövlət orqanları arasında koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası yaradılmışdır.

Qeyd olunan sərəncamla Komissiyaya ölkədə əmək bazarının mövcud vəziyyətini, o cümlədən qanunvericiliyi təhlil edərək, əmək münasibətlərinin tənzimlənməsi sahəsində qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla inzibatçılığın, habelə bu sahənin təkmilləşdirilməsinə dair təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi və əmək münasibətlərinin rəsmiləşdirilməsi və işçilərin sosial müdafiəsinin gücləndirilməsi, qeyri-rəsmi əmək münasibətlərinin aşkar edilməsi, rəsmiləşdirilməsi və bu sahədə qanun pozuntularına yol vermiş şəxslər barəsində qanunamüvafiq tədbirlərin görülməsi də daxil olmaqla tədbirlər planının hazırlanması və təsdiq edilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbir Planı"na uyğun olaraq normativ hüquqi aktların təkmilləşdirilməsi, inzibatçılığın təkmilləşdirilməsi, nəzarət tədbirlərinin gücləndirilməsi, monitorinq və qiymətləndirmə sisteminin qurulması, məlumatlandırma və təbliğat işlərinin təşkili ilə bağlı 36 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər Planına uyğun olaraq respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınması məqsədilə 2017-ci ildə Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Mülki Məcəlləsində və digər normativ hüquqi aktlarda dəyişikliklər barədə layihələr hazırlanmış və Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasına təqdim edilmişdir.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-noyabr aylarında əhalinin gəlirləri nominal ifadədə 8,2 faiz artaraq 43,4 mlrd. manata çatmışdır.

"Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında" 2016-cı il 16 dekabr tarixli 450-VQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə əhalinin əsas sosial-demoqrafik qrupları üzrə 2017-ci ilin 1 yanvar tarixindən yaşayış minimumunun məbləği ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən edilmişdir.




2018-ci ilin 1 yanvar tarixindən yaşayış minimumunun məbləği ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat məbləğində müəyyən edilmişdir.

"Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 451-VQ nömrəli Qanunu ilə 2017-ci il üçün ehtiyac meyarının həddi 116 manat məbləğində müəyyən edilmişdir. 1 yanvar 2018-ci il tarixdən ehtiyac meyarının həddi 130 manata çatdırılmışdır.

Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan

Respublikası Prezidentinin Fərman layihəsi hazırlanmış, aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1366 nömrəli Fərmanı ilə qüvvəyə minmişdir.

“Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində sosial xidmət müəssisələrinin yaradılması və istismarı ilə bağlı məsələlər haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2017-ci il 12 aprel tarixli 147 nömrəli Qərarının 4-cü bəndinin icrası ilə əlaqədar DSMF-nin nəzdində “Yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün Sosial Sığınacaq”, “Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi” və “Yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi” sosial xidmət müəssisələrinin Nizamnamələri hazırlanmış və Nazirliyin Kollegiyasının müvafiq qərarları ilə təsdiq edilmişdir.

Nazirliyin strukturunun təkmilləşdirilməsi ilə əlaqədar olaraq “DSMF-nin şəhər, rayon şöbələrinin Əsasnaməsi” hazırlanmış və Nazirliyin Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan sosial xidmət müəssisələrinin fəaliyyət istiqamətlərinin təkmilləşdirilməsi və “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasından irəli gələn tapşırıqların həyata keçirilməsi məqsədilə “DSMF-nin nəzdində “Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinin Nizamnaməsi” hazırlanmış, Nazirliyin Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasında sosial xidmətin müasir tələblərə uyğunlaşdırılması məqsədi ilə “2018-2022-ci illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafı Konsepsiyası”nın layihəsi hazırlanmışdır.

Çətin həyat şəraitində olan şəxslərin sosial inklüziyasının təmin edilməsi, müvafiq sahədə qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi və keyfiyyətli sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılması məqsədilə Avropa İttifaqının maliyyə dəstəyi ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Vyana şəhəri İşçi Nümayəndəliyi tərəfindən birgə icra edilən “Sosial xidmət təminatının inkişafı” Tvinninq layihəsinin əsas hədəflərindən biri də Nazirliyin sosial xidmətin təşkili sahəsində fəaliyyət göstərən əməkdaşlarının peşəkarlıq səviyyələrinin qabaqcıl beynəlxalq təcrübəyə uyğun “Sosial iş” modeli əsasında təkmilləşdirilməsi olmuşdur. Layihənin icrası ilə əlaqədar olaraq yeni “Sosial iş” modelinin tətbiqi istiqamətində pilot ərazi kimi seçilmiş Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri Xəzər rayonu, Gəncə şəhəri, Lənkəran və Xaçmaz rayonları şöbələrinin Sosial xidmət sektoru əməkdaşlarına sosial xidmət sisteminin təkmilləşdirilməsi üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrədilməsi, nəzəri və təcrübi biliklərinin artırılması məqsədlə “Məişət zorakılığı”, “Ahıllar”, “Cəza çəkməkdən azad edilmiş şəxslər” və “Ailələr və uşaqlar” mövzularında silsilə təlimlər təşkil olunmuşdur.

“Sosial iş” modelinin tətbiqinə hazırlıq işlərinin davamı olaraq Nazirlik və BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı Nümayəndəliyinin “2016-2020-ci illərə dair Əməkdaşlıq Proqramı” çərçivəsində Bakı şəhəri, Qəbələ və Tovuz rayonları üzrə sosial xidmət işçiləri üçün “Sosial işin əsasları” mövzusunda silsilə təlimlər keçirilmişdir.

Nazirliklə UNİCEF arasında qəbul olunmuş 2016-2020-ci illərə dair Əməkdaşlıq Proqramı çərçivəsində may ayında “2016-2017-ci illər üçün Uşaq Müdafiəsi və Sosial Müdafiəyə dair Dövri Fəaliyyət Planı” imzalanmışdır. Proqramın məqsədi uşaqların, xüsusilə çətin həyat şəraitində olan uşaqların keyfiyyətli və bərabər müdafiəsi, onların təhsil və səhiyyə, qidalanma xidmətlərindən istifadə imkanlarının genişləndirilməsidir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanun layihəsi hazırlanmış və aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur. Bu Qanun layihəsi ilə Azərbaycan Respublikasının qoşulduğu "Əlillərin hüquqları haqqında" Birləşmiş Millətlər Təşkilatının Konvensiyası ilə nəzərdə tutulmuş bütün hüquq və azadlıqların təmin olunması, o cümlədən bu sahədə dövlət siyasətinin əsas

prinsiplərini, dövlət təminatlarını, əlilliyin qarşısının alınması, əlilliyi olan şəxslərin reabilitasiyası, məşğulluğu, əlil şəxslərin sosial təminatları və s. mühüm məsələlər əhatə edilir.

"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 oktyabr tarixli 2379 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrası olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2017-ci il 26 dekabr tarixli 19-1 nömrəli Qərarı ilə "Ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara hərbi xidmətlə əlaqədar əlillik səbəblərinin müəyyən olunması barədə Təlimat" təsdiq edilərək Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün təqdim edilmişdir.

Əlilliyi olan şəxslər üçün reabilitasiya sisteminin maddi-texniki bazasının gücləndirilməsi və müasir tələblərə uyğun qurulması istiqamətində ciddi işlər görülmüşdür. Əsaslı təmir və yenidənqurma işləri aparıldıqdan sonra Uşaq Bərpa Mərkəzi 2017-ci ildən əhalinin istifadəsinə verilmişdir. Mərkəzin yaradılmasında məqsəd tibbi, sosial, tədris-peşə reabilitasiya tədbirlərinin aparılması yolu ilə sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpa edilməsini və onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir.

Tikintisi 2016-cı ildə başa çatdırılmış Bakının Zabrat qəsəbəsində yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi istifadəyə verilmişdir. Mərkəzdə yetkinlik yaşına çatmamış görmə qabiliyyəti məhdud əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial və peşə-əmək reabilitasiyası müasir standartlara cavab verən səviyyədə həyata keçirilir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Uşaq Fondu arasında imzalanmış 2016-2020-ci illərə dair Əməkdaşlıq Proqramı çərçivəsində "2016-2017-ci illər üçün Uşaq Müdafiəsi və Sosial Müdafiəyə dair Dövri Fəaliyyət Planı"na uyğun olaraq 2017-ci ilin 12 oktyabr – 4 dekabr tarixlərində Nazirliyin Uşaq Bərpa Mərkəzi və Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsinin əməkdaşları üçün "Əlilliyi olan uşaqlara göstərilən sosial inklüziya xidmətlərinin əsas prinsipləri və metodları" mövzusunda 11 modul üzrə təlimlər keçirilmişdir.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ölkənin bütün bölgələri üzrə 15 bərpa-müalicə müəssisəsi, o cümlədən Respublika Protez-Ortopedik Bərpa Mərkəzi və Heydər Əliyev Fondu tərəfindən yaradılmış Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi müvafiq şəxslərin istifadəsindədir. 2017-ci il ərzində Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya xidmətinin nəzdində fəaliyyət göstərən əlillərin bərpa mərkəzlərində və Protez Ortopedik Bərpa Mərkəzində ümumilikdə 39762 nəfər əlilliyi olan şəxs müalicə almışdır.

2017-ci ildə Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən 9072 nəfər əlilliyi olan şəxsin (onlardan 935 nəfər ölkənin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərdir) 13855 müraciəti üzrə 32990 sayda bu və ya digər reabilitasiya vasitələri təmin edilmiş, o cümlədən 522 şəxsə bərpa və reabilitasiya müalicəsi və 83 rayonda 1011 nəfər şəxsə səyyar qaydada xidmət göstərilmişdir. Qeyd olunan dövrdə əlilliyi olan şəxslər 1193 əlil arabası, 615 eşitmə aparatı, 1345 ədəd yuxarı və aşağı ətraf protez və ortezləri, 4859 cüt ortopedik ayaqqabı, 24978 sayda müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmuşlar.

Hesabat dövründə dövlət səhiyyə müəssisələri tərəfindən rəsmiləşdirilərək Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminə ötürülmüş 71387 göndəriş üzrə ilkin olaraq 28026 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 12538 nəfər və ya 30,9% azdır. 2017-ci ildə 23002 nəfər ilkin əlilliyi olan şəxs hesab edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 7684 nəfər və ya 25,0% azdır. Hesabat dövründə 5024 nəfər ilkin olaraq sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir ki, bu da ötən illə müqayisədə 4854 nəfər və ya 49,1 % azdır.

I qrup ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 3530 nəfər, II qrup ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 16232 nəfər, III qrup ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı isə

3240 nəfər olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq I qrup üzrə 24% çox, II qrup üzrə 27,5% və III qrup üzrə isə 40,7% azdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli 413 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"yə uyğun olaraq 2017-ci ildə 28488 şəxsin əlilliyi və sağlamlıq imkanlarının məhdudluğu Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi tərəfindən avtomatik uzadılmışdır.

2017-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək, sosial müdafiə və sosial təminat sisteminin, əlilliyin qiymətləndirilməsi, reabilitasiya, məşğulluq və digər fəaliyyət istiqamətləri üzrə İKT-nin son nailiyyətlərinin tətbiqi və innovativ yanaşma ilə müasir infrastrukturun qurulması və əhaliyə həmin sahələr üzrə göstərilən xidmətlərin elektronlaşdırılaraq şəffaflaşdırılması yönündə islahatlar davam etdirilmişdir.

Nazirliyin Mərkəzləşdirilmiş İnformasiya Sisteminin Əmək Müqaviləsi Bildirişinin Elektron İnformasiya Sistemi, Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi, Tibbi Sosial Ekspertiza və Reabilitasiya At Sistemi, Məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin və dəfn üçün vəsaitin ödənilməsi üzrə alt sistem, Vətəndaş Qəbulu Alt Sistemi və digər informasiya sistemləri uğurla fəaliyyət göstərmiş, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması məqsədilə davamlı tədbirlər görülmüşdür.

Qeyd olunan sistemlərlə yanaşı Nazirliyin fəaliyyət istiqamətləri üzrə avtomatlaşdırma, elektronlaşdırma və təkmilləşdirmə işləri davam etdirilmişdir. Belə ki, 2017-ci ilin 1-ci rübündən etibarən fərdi uçot əsaslı "Sığorta Alt Sistemi" istifadəyə verilmişdir. Bu alt sistemin tətbiqi "Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi", "Məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın təqdim edilməsi" və "Əmək şəraitinə görə güzəştli əmək stajı hesablanan işçilərin siyahısının təqdim edilməsi" kimi 3 hesabatın əvəzinə 1 hesabatın təqdim edilməsi təmin edilmişdir. Bundan başqa, hesabatların birləşdirilməsi nəticəsində fərdi şəxsi hesablarda toplanan məlumatların yenilənmə tezliyi 15 aydan (il tamam olduqdan sonra növbəti ilin aprel ayının 20-dən sonra) 3 aya endirilmişdir. Aparılmış islahatlar nəticəsində Sığorta Alt Sistemi bir sıra dövlət orqanlarının, eləcə də Nazirliyin digər alt sistemlərinə inteqrasiya edilmişdir ki, bu da zəruri məlumatların düzgünlüyünün yoxlanılmasına, yanlış məlumatların daxil edilməsinin aradan qaldırılmasına kömək etməklə sığortaedənlər tərəfindən hesabatın təqdim edilməsi prosesini əvvəlki proqram təminatına nisbətən çox sadələşdirmişdir. Hesabatlar sığortaolunanların məsul və rəhbər şəxsləri tərəfindən elektron imza ilə imzalanaraq rəsmiləşdirilir. Bu məsələdə elektron imza və elektron sənədə dair qanunvericiliyin tələbləri nəzərə alınmışdır.

Sığorta Alt Sistemi üzrə funksional imkanlarının genişləndirilməsi nəticəsində sığortaedən tərəfindən şəxsi hesab vərəqəsinə nəzarət, ödənişlərlə bağlı əməliyyatların aparılması, ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının sığortaolunanlar arasında proporsional qaydada bölgüsünün avtomatik aparılması, sığortaedənlər üzrə borcların nəzarətdə saxlanılması, sığortaedənlərin məmur-vətəndaş təması olmadan məlumatlandırılması kimi imkanlar təmin edilmişdir. Bu alt sistem üzrə "Elektron hökumət" portalı üzərindən sığortaedənlər və sığortaolunanların istifadəsinə verilmiş elektron xidmətlərin sayı 11-ə çatdırılmışdır. 2017-ci ildə "Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi" və "Sığortaolunanın ölümünə dair məlumatın onlayn qəbulu" adlı yeni elektron xidmətlər istifadəyə verilmiş, "Sığortaolunanlara məlumatların verilməsi", "Sığortaolunanın onlayn uçota alınması", "Dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatının verilməsi üçün müraciətin qəbulu" və digər elektron xidmətlər əhəmiyyətli şəkildə yenilənərək təkmilləşdirilmişdir.

Ötən il ərzində "Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi" elektron xidmətindən 1 053 700, "Sığortaolunanın ölümünə dair məlumatın onlayn qəbulu" elektron xidmətindən 12 505, "Sığortaolunanlara məlumatların verilməsi" elektron xidmətindən

217 544, "Sığortaolunanın onlayn uçota alınması" elektron xidmətindən 256 709, "Dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatının verilməsi üçün müraciətin qəbulu" elektron xidmətindən 49 473 dəfə istifadə edilmişdir.

Qeyd olunanlara əlavə olaraq, 2017-ci ildə "Müavinət, təqaüd və kompensasiya Alt Sistemi" və "Əlillərin bərpası Alt Sistemi"nin yaradılması üzrə işlər başa çatdırılmışdır. "Müavinət, təqaüd və kompensasiya Alt Sistemi" əhaliyə ödənilən müxtəlif təyinatlı təqaüd, kompensasiya və müavinətlər üzrə Nazirliyin elektron müstəvidə, avtomatlaşdırılmış qaydada həyata keçirdiyi əməliyyatları əhatə edir.

"Əlillərin bərpası Alt Sistemi" isə Tibbi Sosial Ekspert Komissiyalarının göndərişləri əsasında əlilliyi olan şəxslərin bərpa və reabilitasiyası, eləcə də protez-ortopedik məmulatlarla təminatı məqsədilə zəruri əməliyyatların alt sistem üzərindən həyata keçirilməsini təmin edir. Alt sistemdə əlilliyi olan şəxslərin qəbulu, müayinəsi, müxtəlif təhlillərin aparılması, müalicə prosedurların təyini və həkimlər tərəfindən bərpa və müalicə prosedurunun nəticələrinin daxil edilməsi və başqa əməliyyatlar həyata keçirilir. Hər iki alt sistem hazırda son sınaqlardan keçirilir.

Elektron xidmətlər vətəndaş-məmur təmaslarını minimuma endirməklə şəffaflığı təmin etməklə yanaşı həm də qəbul edilmiş qərarların reallığı əks etdirməsinə və resurslara qənaətə imkan yaradır.

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində Azərbaycanın uğurlu təcrübəsi olan Əmək Müqaviləsi Bildirişinin Elektron İnformasiya Sistemi BMT-nin ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) "Çempion layihə" mükafatına layiq görülmüşdür. Bu, Azərbaycan İKT-nin uğurlu tətbiqi sahəsində layiq görüldüyü ilk BTİ mükafatıdır. Azərbaycanın yerli mütəxəssislərinin bilik və bacarığının məhsulu olan Əmək Müqaviləsi Bildirişinin Elektron İnformasiya Sistemi əmək bazarına nəzarətin operativ və səmərəli təşkilində, bu sahə ilə bağlı dəqiq uçotun aparılmasında, əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasında, əmək və sosial hüquqların təminatında xüsusi əhəmiyyət kəsb edir.

Dünya Bankının ekspert qrupunun müraciəti nəzərə alınmaqla həmin təşkilatın Vaşinqton şəhərindəki (ABŞ) mərkəzi ofisi üçün Nazirliyin ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin videokonfrans vasitəsilə geniş təqdimatı keçirilmişdir.

Ümumilikdə 2017-ci il ərzində nazirliyin e-xidmətlərindən 9,3 milyon dəfə istifadə edilmişdir. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin "Elektron hökumət portalı"nda təqdim olunan elektron xidmətlərdən istifadə üzrə növbəti statistik məlumatına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 42 dövlət qurumu arasında birincidir. Belə ki, 2017-ci il ərzində portalda e-xidmətlərdən istifadənin 40,64%-i Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xidmətlərinin payına düşür.

Nazirlik tərəfindən əhaliyə göstərilən xidmətlərin digər mühüm istiqaməti Çağrı Mərkəzi vasitəsilə əhaliyə göstərilən telefon məlumat xidmətidir. Nazirliyin Çağrı Mərkəzində 2017-ci il ərzində 151 895 vətəndaş müraciəti cavablandırılmışdır. Çağrı Mərkəzi vasitəsilə vətəndaşlar əlillik müayinəsinin nəticəsi və sosial yardımın təyinatı üçün edilən müraciətə baxılmasının cari vəziyyəti barədə də məlumat əldə edə və yaşa görə əmək pensiyası hüququnu reallaşdıra bilirlər.

"Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanının 7.2-ci bəndinin icrası olaraq müvafiq tədbirlər Nazirlik tərəfindən görülərək zəruri məlumatlara İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin çıxışı təmin edilmişdir.




2017-ci ildə nazirliyin rəsmi facebook səhifəsi vasitəsilə 2173 müraciət cavablandırılmış və nazirliyin İnstagram səhifəsi də fəaliyyətə başlamışdır. Hazırda Nazirliyin rəsmi facebook səhifəsini izləyənlərin sayı 43 mindən çoxdur. Bu da mərkəzi icra hakimiyyəti orqanları arasında ən yüksək göstəricilərdən biridir. Nazirliyin twitter hesabının daimi yenilənməsi təmin edilmişdir. Youtube kanalında isə 2017-ci il ərzində nazirliyin tədbirləri ilə bağlı 100-ə yaxın videosüjet yerləşdirilmişdir. Qeyd olunan sosial şəbəkələrə girişi daha da asanlaşdırmaq üçün Nazirliyin rəsmi saytında onlara keçid linkləri yaradılmışdır.

Hesabat dövründə 460-dan artıq məlumat hazırlanaraq mətbuatda yayılmışdır. Nazirliyin rəsmi internet səhifəsindəki «Xəbərlər» bölümündə 286, «Press-relizlər» bölümündə isə 175 məlumat təqdim edilmişdir. Yayımlanan bütün press-relizlər ingilis dilinə tərcümə edilərək saytda yerləşdirilmişdir.

Nazirlik tərəfindən cəmiyyətə informasiya açıqlığının və şəffaflığın daha bir təzahürü kimi, müvafiq kateqoriyalardan olan şəxslərin mənzil və minik avtomobilləri ilə təminatında növbəlilik siyahıları, həmçinin bu təminat növləri ilə mənzil və minik avtomobilləri ilə təmin olunmuş vətəndaşların siyahıları, ünvanlı dövlət sosial yardımı alan ailələrin siyahıları saytda yerləşdirilmiş və mütəmadi olaraq yenilənir. Bu amil həmin sahələrdə aparılan işlərə ictimai nəzarətin və şəffaflığın təmin edilməsinə şərait yaratmışdır.

Bununla yanaşı, nazirlik tərəfindən hazırlanan bütün normativ-hüquqi aktların layihələri saytın “Qanunvericilik” bölməsinin “Qanunvericilik layihələri” alt-bölümündə ictimaiyyətə təqdim edilir. İctimaiyyətin rəy və təklifləri layiheler@mlspp.gov.az e-mail ünvanı vasitəsilə qəbul edilir və layihələrin daha da təkmilləşdirilməsi zamanı bu rəy və təkliflər nəzərə alınır. Bu isə əmək və sosial müdafiə sahəsində qanunvericiliyin təkmilləşdirilməsində ictimai iştirakçılığın təmin olunmasına xidmət edir.

## Pensiya təminatı

Mahiyyətinə və miqyasına görə əhalinin sosial müdafiəsinin mərkəzi həlqəsi olan və mühüm makroiqtisadi təsir gücünə malik pensiya təminatı sistemi ölkə əhalisinin 13,4 faizini əhatə edərək əmək pensiyaçıları üzrə sosial öhdəliklərin icrasında vacib rol oynayır. Pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm və əsas istiqamətlərindən biridir.

2017-ci ildə əhalinin etibarlı pensiya təminatına nail olunması məqsədi ilə pensiya təminatı sisteminin fəaliyyətində sığorta prinsiplərinin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə toplanılan sığorta vəsaitləri arasında balanslaşdırma mexanizmlərinin

formalaşdırılması, pensiya təminatı sistemində təyin olunan pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin təmin edilməsi, sığorta prinsiplərinə uyğun olmayan ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, o cümlədən bir sıra öhdəliklərin dövlət öhdəliyi kimi fərqləndirilməsi istiqamətində bir sıra islahat tədbirləri həyata keçirilmişdir. Aparılan islahatlar nəticəsində əhalinin pensiya təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış və pensiya təminatı sisteminin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığı təmin olunmuşdur.

Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən 2017-ci ilin yanvarın 1-dən bütün növ əmək pensiyalarının sığorta hissəsinə artım tətbiq olunmuşdur.

Əmək pensiyalarının sığorta hissəsinin əvvəlki ilin istehlak qiymətləri indeksinə uyğun, yəni 12,4 faiz indeksləşdirilərək artırılması həyata keçirilmişdir.

01.01.2018-ci il vəziyyətinə ölkədə 1 milyon 322 min 879 nəfər əmək pensiyası alır. Ölkə üzrə əmək pensiyaçılarının 01 yanvar 2018-ci il tarixinə 780756 nəfəri və ya 59,02 faizi yaşa görə, 151272 nəfəri və ya 11,43 faizi ailə başçısını itirməyə görə, 390851 nəfəri və ya 29,55 faizi isə əlilliyə görə pensiya alanlardır. Pensiyaçıların sayı 2017-c ilin əvvəlinə nisbətən 7650 nəfər və ya 0,6% artmışdır.

Eyni zamanda pensiyanın orta aylıq məbləği 01.01.2018-ci il vəziyyətinə 205,5 manatdır ki, bu da 2017-ci ilin əvvəlinə nisbətən 6,93 % yuxarıdır, o cümlədən 01.01.2018-ci il vəziyyətinə yaşa görə pensiyanın orta aylıq məbləği 230,7 manat təşkil edir və bu da 2017-ci ilin əvvəlinə nisbətən 7,9% yuxarıdır. Hazırda ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləği əməkhaqlarının orta aylıq məbləğinə (525,6 manat) nisbəti 39,1% təşkil edir (yaşa görə əmək pensiyası üzrə bu nisbət 43,9 %-dir).

**Əmək pensiyaçılarının sayı və pensiyanın orta aylıq məbləği barədə məlumat**

| | Yaşa görə | Orta aylıq | Əlilliyə görə | Orta aylıq | ABİ | Orta aylıq | Ümumi | Orta aylıq |
|---|---|---|---|---|---|---|---|---|
| **31.12.2005** | 779472 | 29,49 | 266888 | 32,25 | 135315 | 26,51 | 1181675 | 29,78 |
| **31.12.2006** | 783371 | 40,98 | 275925 | 45,35 | 128730 | 32,56 | 1188026 | 41,09 |
| **31.12.2007** | 798052 | 60,11 | 285629 | 62,73 | 126430 | 43,48 | 1210111 | 58,99 |
| **31.12.2008** | 835844 | 99,39 | 301661 | 94,8 | 137633 | 76,37 | 1275138 | 95,82 |
| **31.12.2009** | 858659 | 104,36 | 311849 | 98,53 | 137924 | 80,11 | 1308432 | 100,41 |
| **31.12.2010** | 831122 | 117,58 | 324745 | 110,74 | 136288 | 89,2 | 1292155 | 112,86 |
| **31.12.2011** | 812771 | 160,1 | 331586 | 126,1 | 133239 | 101 | 1277596 | 145,11 |
| **31.12.2012** | 800547 | 168,54 | 338213 | 129,84 | 133376 | 109,15 | 1272136 | 152,03 |
| **31.12.2013** | 791263 | 187,82 | 349095 | 148,4 | 136695 | 126,16 | 1277053 | 170,45 |
| **31.12.2014** | 785068 | 192,38 | 365750 | 149,43 | 140064 | 130 | 1290882 | 173,44 |
| **31.12.2015** | 781238 | 197,62 | 374466 | 150,3 | 144242 | 140,4 | 1299946 | 177,64 |
| **31.12.2016** | 781957 | 213,81 | 383590 | 163,23 | 149682 | 153,43 | 1315229 | 192,19 |
| **31.12.2017** | 780756 | 230,70 | 390851 | 171,4 | 151272 | 163,10 | 1322879 | 205,5 |

**Qeyd:** Əmək pensiyaçılarının sayı nəfərlə, pensiyanın orta aylıq məbləği manatla verilmişdir.

2017-ci ilin mart ayında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda "2014-2020-ci illərdə

Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"ndan irəli gələn bir sıra məsələlər, məsələn pensiya təyinatı şərtlərinin hər bir şəxs üzrə ödənilən sosial sığorta haqqının məbləğinə uyğunlaşdırılması, əmək pensiyalarının məbləğinin sığortaolunanlar üzrə ödənilmiş sosial sığorta haqqının məbləğinə mütənasibliyin təmin edilməsi, əmək pensiyalarının baza hissəsinin sığorta hissəsinə restrukturizasiyası və minimum pensiya məbləği göstəricisinin tətbiqi, pensiyaya daha gec çıxmağı stimullaşdıran, pensiyaya daha tez çıxmağa marağı azaldan mexanizmlərin tətbiqi, erkən pensiyaya çıxma hallarının məhdudlaşdırılması, pensiya təminatında dövlət öhdəlikləri ilə sığorta-pensiya sisteminin öhdəliklərinin maliyyə mənbəyinin fərqləndirilməsi, güzəştli şərtlərlə yaşa görə əmək pensiyasına çıxmaq hüququ olanlara tələb olunan minimum sosial sığorta stajı illərinin sığorta prinsiplərinə uyğunlaşdırılması, kişilər və qadınlar üçün pensiya yaşının demoqrafik göstəricilərə uyğunlaşdırılması və s. öz həllini tapmışdır.

Bu Qanunun tətbiqi ilə bağlı layihələr hazırlanmış, aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış və Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2017-ci il tarixli 1597 nömrəli Fərmanı ilə "Sosial sığorta ehtiyatından istifadə Qaydası" və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası" təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 5 may tarixli 294s nömrəli Sərəncamının 2-ci bəndindəki tapşırıqlar icra olunaraq "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"nın layihəsi hazırlanmış və aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əmək pensiyalarının təyin edilməsi, yenidən hesablanması, bir növündən başqa növünə keçirilməsi və ödənilməsi Qaydaları"nın layihəsi hazırlanmış və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 11 dekabr 2017-ci il tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Hüquqi Aktların Dövlət Reyestrində 21 dekabr 2017-ci il tarixdə qeydə alınmışdır.

Məcburi dövlət sosial sığorta haqqı normativinin strukturunun təkmilləşdirilməsi məqsədilə "Sığortaedənlər tərəfindən məcburi dövlət sosial sığorta haqqının ödənilməsinin və məcburi dövlət sosial sığorta sahəsində mövcud olan borcların tənzimlənməsi haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihələri hazırlanmışdır.

Əmək pensiyalarının könüllü yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması məqsədilə "Fərdi hesabın yığım hissəsi haqqında" Azərbaycan Respublikasının Qanunu və "Qeyri-dövlət pensiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu layihələrinin ilkin variantı hazırlanmışdır.

---